# "Bu dünyanı nağıl bilək"

Bakıdakı 31 nömrəli tam orta məktəbdə fizika müəllimi, şairə Kəmalə Abiyevanın yaradıcılığına həsr olunan "Bu dünyanı nağıl bilək" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə məktəbin pedaqoi kollektivi, şairənin qələm dostları ədəbiyyatşünas alim Firuz Mustafa, filologiya üzrə fəlsəfə doktoru Kamran Nəzirli, yazıçı Aysel Əlizadə, hərbi jurnalist, polkovnik-leytenant İbrahin Rüstəmli, yazıçı Rəhman Orxan və başqaları iştirak edib.



Məktəbin direktor müavini Naibə Rüstəmova şairənin insanlığa, bəşəriyyətə, ana təbiətə, Azərbaycana sonsuz məhəbbətlə naxışlanan poeziyasından söz açıb. Bildirib ki, öz dəst-xətti ilə seçilən müəllifin şeirlərindəki vətənpərvərlik, həzinlik, fikirlərin dərinliyi oxucunu cəlb edir, daim düşündürür. Sonra məktəbin şagirdləri nəğməkar şairənin şeirlərindən parçalar söyləyib, mahnılar oxuyub, səhnəciklər, kompozisiyalar nümayiş etdiriblər. Xüsusilə şagirdlərin ifasında səslənən "Vətənim", "Ana beşik üstə şam kimi yanır", "Bir uşaq boylandı", "Mənə nağıl danış", "Qızcığazlar ana olmaq istəyir", "Anama", "Daha uşaq deyiləm", "Yağış yağır bu şəhərə", "Bakı haqqında nəğmə","Unut bircə anlıq", "Bir layla de","Qaraçı qız" və s. adlı şeirlər hamını şairənin poeziyasına vurğun edib. Çıxış edənlər Kəmalə xanımın yaradıcılığına olan sevgi və məhəbbətdən söz açıblar. Söyləyiblər ki , şairənin şeirlərinə çoxlu sayda mahnılar bəstələnib.

Tədbirdə eləcə də əməkdar artist Lalə Məmmədovanın ifasında müəllifin sözlərinə bəstələnmiş "Məktəb illəri", İlqar Muradovun ifasında isə "Bu dünyanı nağıl bilək" mahnıları səsləndirilib və bu mahnılar iştirakçılarda xoş ovqat yaradıb.

Müəllif isə çıxışında özünün nəğməkar şairə kimi tanınmasında əməyi olan incəsənət xadimlərinə, şeirlərinə musiqi bəstələyən əməkdar incəsənət xadimi Aygün Səmədzadəyə və iştirakçılara minnətdarlığını bildirib və son günlərdə yazdığı bir neçə şeiri səsləndirib.

Sonda məktəbin direktoru Kərim Abidi pedaqoji fəaliyyətlə bərabər, uzun illər ədəbi yaradıcılıqla da məşğul olan Kəmalə Abiyevanın poeziyasını yüksək dəyərləndirib və ona yeni-yeni yaradıcılıq uğurları arzulayıb.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*